# AZƏRBAYCAN BARƏDƏ BİR HƏDİSİN İZİ İLƏ

**_İlqar İSMAYILZADƏ,_**
*ilahiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*ilqar_ismayilzade@yahoo.com*

***AÇAR SÖZLƏR:*** *Azərbaycan, hədis, sənəd, məna, atəş, fitnə.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Азербайджан, хадис, документ, значение, огонь, искушение.*
***KEY WORDS:*** *Azerbaijan, hadith, document, meaning, fire, sedition.*

## Giriş

Bir sıra hədis məxəzlərində Azərbaycanla bağlı xüsusi bir hədisə rast gəlinir. Həmin hədisdə nə vaxtsa Azərbaycandan qaçılmaz bir odun (dəhşətli hadisənin) qalxacağından xəbər verilir. Sözügedən hədisdə inanclı insanlara həmin hadisə zamanı evdə qalmaqla bağlı xəbərdarlıq edilir.

Məlum hədis müxtəlif zamanlarda ayrı-ayrı hadisələr və şəxslər barədə tətbiq edilmiş, onun malik olduğu sənəd (ravilər) silsiləsi və ehtiva etdiyi məna diqqətlə araşdırılmadan barəsində qəribə fikirlər səsləndirilmişdir.

Bu məqaləmizdə iki sənəd vasitəsilə nəql edilmiş həmin hədis sənəd və məna baxımından araşdırılmış və müəyyən nəticələr əldə edilmişdir.

### Hədisin sənədi və tam mətni ilə tanışlıq

Məlum hədisin nəql edildiyi əsl məxəz Şeyx Məhəmməd ibn İbrahim Nömaninin (v. h. 360) *"Kitabul-ğəybə"* adlı əsəridir. Bu məxəzdə həmin hədis belə təqdim edilmişdir: *"Əbu Bəsir İmam Sadiqdən (ə) nəql edir: "Atam (İmam Baqir) mənə belə dedi: "Azərbaycandan hökmən bir od qalxacaq və heç bir şey onun yerini verə bilməyəcəkdir. Belə olduqda evdə qalın və bizim kimi evdə əyləşin (sükut edin). Bizim hərəkət (qiyam) edənimiz (İmam Mehdi) hərəkət etdikdə isə iməkləyən halda olsa belə (mümkün olan hər bir tərzdə), ona tərəf tələsin. And olsun Allaha ki, sanki mən onu (Kəbə evində) Rükn ilə Məqam arasında dayanıb insanlarla yeni Kitab əsasında beyət etdiyini və (azğın) ərəblərə qarşı hiddətli olduğunu görürəm". O dedi: "Çox yaxın olan şərdən azğın ərəblərin halına vay olsun!"* [1, s.282].

Bu hədisi əsrlər sonra Məhəmməd Baqir Məclisi (h.1037-1111) *"Biharul-ənvar"* adlı kitabında İmam Sadiq (ə) vasitəsilə atası İmam Baqirin (ə) belə dediyi formada nəql etmişdir: *"Bizim üçün hökmən bir Azərbaycan olacaq və heç bir şey onun yerini verə bilməyəcəkdir..."* [2, c.52, s.135, 293-294].

Göründüyü kimi, *"Biharul-ənvar"* kitabında məlum hədis tam fərqli tərzdə nəql edilmiş və ilk baxışda Azərbaycan diyarı üçün tərif kimi söylənildiyi başa düşülür. Bəzi alimlər və vaizlər hədisin *"Biharul-ənvar"* kitabında olan versiyasına istinad edərək doğma vətənimiz Azərbaycanın Əhli-beyt (ə) yanında xüsusi hörmətə malik olduğundan və üstün məqamından söz açmış, ölkəmiz və millətimiz üçün fəzilətlər saymağa çalışmışlar. Halbuki hədisin nəql edildiyi əsl məxəzə diqqət yetirdikdə onun tam ayrı mənada (Azərbaycanda nə vaxtsa baş verəcək mühüm hadisə mənasında) olduğu ortaya çıxır.

### Hədisin sənəd silsiləsinə baxış

Şeyx Nömani Azərbaycanla bağlı hədisi öz kitabının 11-ci bölümündə bu sənədlə nəql etmişdir: Əhməd ibn Məhəmməd ibn Səid ibn Üqdə Kufi + Əhməd ibn Yusif ibn Yəqub Cüfi Əbül-Həsən + İsmayıl ibn Mihran + Həsən ibn Əli ibn Əbu Həmzə + Əli ibn Əbu Həmzə.

Və Vüheyb ibn Həfs + Əbu Bəsir: İmam Sadiq (ə) - atası İmam Baqir (ə)... [1, s.282].

Burada Vüheybin adından öncə "və" ədatını əlavə etməklə hədisin, əslində, iki sənədlə İmam Sadiqə (ə) çatdığı bildirilir. Buna görə də məlum hədis aşağıdakı iki sənəd vasitəsilə təqdim edilmişdir:

***Birinci sənəd silsiləsi:*** Əhməd ibn Məhəmməd ibn Səid ibn Üqdə Kufi + Əhməd ibn Yusif ibn Yəqub Cüfi Əbül-Həsən + İsmayıl ibn Mihran + Həsən ibn Əli ibn Əbu Həmzə + Əli ibn Əbu Həmzə + Əbu Bəsir: İmam Sadiq (ə) - atası İmam Baqir (ə)...

***İkinci sənəd silsiləsi:*** Əhməd ibn Məhəmməd ibn Səid ibn Üqdə Kufi + Əhməd ibn Yusif ibn Yəqub Cüfi Əbül-Həsən + İsmayıl ibn Mihran + Həsən ibn Əli ibn Əbu Həmzə + Vühəyb ibn Həfs + Əbu Bəsir: İmam Sadiq (ə) - atası İmam Baqir (ə)...

Şeyx Nömani həmin hədisi öz kitabının 14-cü bölməsində isə bu sənədlə nəql etmişdir: Əhməd ibn Məhəmməd ibn Səid (ibn Üqdə Kufi) + Əhməd ibn Yusif ibn Yəqub Cüfi (Əbül-Həsən) + İsmayıl ibn Mihran + Həsən ibn Əli ibn Əbu Həmzə + Əli ibn Əbu Həmzə + Əbu Bəsir: İmam Sadiq (ə)... [1, s.379].

Azərbaycanla bağlı nəql olunmuş bu hədisin ravilər silsiləsində yeddi ravi (rəvayəti nəql edən şəxs) mövcuddur. Bu hədislər məhz həmin yeddi nəfərin vasitəsilə İmamdan nəql edilmişdir. Hədisin ravilər silsiləsi bir-birinə silsiləvari şəkildə bitişik olsa da, onların hamısı rical elmi baxımından tanınmış və etibarlı şəxslər sayılmır. Hətta onlardan bəzisi zəif, bəziləri isə digər firqələrin ardıcılları sayılır. Məsələn, hədisin sənəd silsiləsində adı keçən Əhməd ibn Məhəmməd ibn Səid etibarlı şəxs sayılsa da, [3, s.422] hədisin digər ravilərindən olan Əhməd ibn Yusif ibn Yəqub əl-Cüfi Əbül-Həsən məchul bir şəxsdir, tanınmır. Hədisin digər ravilərindən İsmayıl ibn Mihran hədis və rical elmində təriflənsə də, [4, s.26-27; 3, s.195] bəzi alimlər onu zəif (etibarsız) adamlardan hədis nəql etməkdə ittiham etmişlər [5, s.255].

Hədisin ravilər silsiləsində yer almış Həsən ibn Əli ibn Əbu Həmzə (Bətaini) də bəzi alimlər tərəfindən təsdiq edilməmiş və etibarlı sayılmamışdır. Hətta bəzi alimlər onun "yalançı", "lənətlənmiş" və "ğali" (Əhli-beyt barədə həddi aşan şəxs) olduğunu da söyləmişlər [3, s.440-441; 6, s.212-213/7].

Bu hədisin ravilər silsiləsində adı keçən Əli ibn Əbu Həmzə (Bətaini) barədə də rical alimləri bir sıra mənfi fikirlər səsləndirmiş, onun həyatda və hədis nəqlində "yalançı" və "müttəhəm" olduğunu bildirmişlər [7, s.403; 8, s.4].

Hədisin digər raviləri Vüheyb ibn Nəfs və Əbu Bəsir bir çox rical alimi tərəfindən təsdiq edilsə də, bəzi alimlər Əbu Bəsir barədə "bəzən qarışdıran" (səhvə yol verən) ifadəsini işlətmişlər [7, s.476].

Azərbaycanla bağlı məlum hədisin iki sənədlə nəql edilməsinə rəğmən, hər iki sənəddə müəyyən qüsurlar olduğundan, bu hədislər sənəd baxımından səhih və mötəbər sayılmır. Çünki hədisin ravilər silsiləsində bəzi məchul və tanınmayan, həmçinin qeyri-mötəbər ravilər mövcuddur. Lakin dini araşdırmalar sahəsində qəbul etdiyimiz elmi prinsipə əsasən, hər hansı hədisin sənəd baxımından zəif olması onu tamamilə tərk etmək anlamına gəlmir. Çünki hədisin sənədi ikinci dərəcəli məsələ sayılır. Onun əsas və önəmli məqamı ifadə etdiyi məzmun və mənadır. Əlbəttə, saxta, uydurma olduğu aydın duyulan hədis və rəvayətlərin məna və məzmununu araşdırmağa heç bir ehtiyac yoxdur. Bu qəbil hədislər uydurma olduğundan ilkin mərhələdə tam şəkildə tərk edilməlidir.

Azərbaycanla bağlı söylənilmiş bu hədislər isə sənəd baxımından zəif olsa da, onların saxta və uydurma olması barədə əlimizdə heç bir tutarlı dəlil yoxdur. Ona görə də bu hədisi məna və məzmun baxımından araşdırmağa dəyər.

**Hədisin məna və məzmunu**

Araşdırmanın bu hissəsində Azərbaycanla bağlı söylənilmiş məlum hədisi məna və dəlalət baxımından araşdıracağıq:

**1.** Hər şeydən öncə qeyd etməliyik ki, hər bir inanclı insan kimi, bizim də öz doğma vətənimiz Azərbaycana və əziz xalqımıza qarşı məhəbbət və hörmətimiz inkaredilməzdir. Lakin düşüncəmizin, inancımızın hökmünə əsasən, həmin məhəbbət və hörmət bizi doğma vətənimiz, əziz xalqımız barədə əsassız danışmağa vadar etməməlidir. Hər şeyə olduğu kimi yanaşmaq və heç bir şeyi şişirtməmək lazımdır.

Unutmayaq ki, hədəf nə qədər gözəl və təqdirəlayiq olsa da, hədəfə nail olmaq yollarına etinasız yanaşa bilmərik. Çünki hədəf istifadə ediləcək yol və vasitəyə bəraət qazandırmır.

**2.** İmam Baqirin (ə) Azərbaycan barədə buyurduğu sözü daha düzgün və dəqiq şəkildə başa düşmək üçün ilk növbədə o dövrdə Azərbaycan deyildikdə hansı ərazilərin nəzərdə tutulduğunu dəqiqləşdirmək lazımdır. Bu isə elə də çətin bir məsələ deyil. Şübhəsiz, bu hədis söylənilən zaman Azərbaycan dedikdə yalnız Xudatdan Astaraya, Balakəndən Zəngilana, həmçinin Xəzər dənizindən Ağstafa, Kəlbəcər, Laçın, Qubadlı və Naxçıvana qədər ərazi nəzərdə tutulmamışdır. Çünki o zaman Azərbaycan həmin ərazilərə deyil, Araz çayının cənub hissəsində yerləşən coğrafi məkana deyilirdi. Bu da Urmiya, Təbriz, Ərdəbil, Mərənd, Zəncan, Qəzvin və s. kimi yerləri özündə ehtiva edirdi. Qədim tarixi məxəzlər, qədim xəritələr, eləcə də tarixçi alimlərin fikrincə, bugünkü Azərbaycan Respublikası qədim zamanlarda "Arran" (Aran), "əl-Ran" və "Alban" (Albaniya) kimi tanınırdı. Bu da əsasən Araz çayının şimal hissəsinə düşürdü. Araz çayının cənub hissəsində yerləşən ərazi isə Adərbayqan, Atropatena, Aturpatakan, Adorbiqan və s. kimi tanınırdı. [8, s.123-126; 9, s.131].

Bu baxımdan, məlum hədis, ümumiyyətlə, müasir Azərbaycan Respublikasına aid edilə bilməz. Hədisi məqbul sayacağımız təqdirdə onun bu gün Araz çayından cənubda yerləşən Azərbaycan diyarına aid olduğu aydınlaşır.

**3.** Bu hədislə bağlı məchul məqamlardan biri haqqında xəbərdarlıq edilən hadisənin nə olduğu və onun nə vaxt baş verəcəyindən ibarətdir. Bunu aydınlaşdırmaq üçün indiyədək Azərbaycan ərazisində baş vermiş və ya baş verəcək ən önəmli hadisələri ehtimal olaraq sadalamaq mümkündür:

***Birinci ehtimal:*** Bu xəbərdarlıq, əslində, gələcək zamana aiddir. Belə ki, bəzi müəlliflərə görə, həmin hədis, əslində, İmam Mehdinin (ə) zühurundan öncə baş verəcək və İmamın zühuru üçün Azərbaycan diyarından böyük dəstək gələcəkdir. Bu baxımdan inanclı insanların ağır fitnələrdə ehtiyatlı olması tövsiyə edilmişdir [10, s.263].

Əlbəttə, biz də inanclı insanların nə vaxtsa və hər hansı ölkədə baş verə biləcək fitnələrdə ehtiyatlı davranması, fitnəkarlıqda əli olan iki tərəfdən heç birinin dəyirmanına su tökməməsi və ya ən azı, fitnə zamanı bitərəf mövqe tutmalı olması ilə tam razıyıq. Həzrət Əli (ə) də hələ on dörd əsr öncə bu barədə belə söyləmişdir: *"Fitnələrdə ibnul-ləbun (iki yaşlı dəvə) kimi ol. Onun minmək üçün nə (möhkəm) beli, nə də sağılmaq üçün döşü vardır"* [11].

Lakin məlum hədisin İmam Mehdinin (ə) zühuruna aid olmadığını ilk növbədə onun məzmunundan əldə etmək mümkündür.

***İkinci ehtimal:*** Bu hadisəni monqollar, xüsusilə də Teymurləngin Azərbaycanı işğal edib, Təbriz şəhərini viran qoymasına aid etmək olar.

***Üçüncü ehtimal:*** Bu eyhamın Bəhailiyin Təbrizdə müsəlmanlar arasında təfriqə yaradacağına aid olduğunu söyləmək olar. Qeyd etmək lazımdır ki, bu hərəkatın banisi Seyid Məhəmməd Əli Bab 9 iyul 1850-ci ildə Təbriz şəhərində edam edilmişdir.

***Dördüncü ehtimal:*** Bu hədis rus qoşunları tərəfindən İranın müəyyən ərazilərinin işğal ediləcəyinə və burada qanlı faciələr törədiləcəyinə işarədir.

Məlum olduğu kimi, 1826-1828-ci illərdə Rusiya-İran müharibəsi zamanı rus qoşunu bir sıra şəhər və kəndlərlə yanaşı, Təbriz şəhərini də tutmuşdur (oktyabr, 1827). Türkmənçay müqaviləsinə (1828) əsasən, Təbriz İranın hakimiyyətində qalmışdır.

***Beşinci ehtimal:*** Bu hadisəni XX əsrdə sovet qoşunlarının Arazın o tayını işğal etməsinə və Təbriz şəhərində Mir Cəfər Pişəvərinin (1892-1942) rəhbərliyi altında Azərbaycan Milli Hökumətinin yaradılmasına aid etmək olar. Həmin proses zamanı çoxsaylı insanların qətlə yetirildiyi və öz doğma yurdundan didərgin düşdüyü hər kəsə bəllidir.

Bura qədər təqdim edilənlər ehtimal sayılır və onların heç biri tutarlı dəlilə əsaslanmır.

***Məqbul fikir:*** Apardığımız araşdırmalara əsasən, məlum hədisdə sözügedən hadisə və Azərbaycandan qalxacaq od xəbərdarlığı keçmiş zamanda baş vermişdir. Aşağıdakı hədisi diqqətlə oxuduqda bu nəticəyə gəlmək mümkündür. Şeyx Nömani Azərbaycanla bağlı olan həmin hədisi öz kitabının 14-cü bölməsində belə nəql etmişdir: *"Əbu Bəsir İmam Sadiqdən (ə) nəql edir: "Abbasi sülaləsi Mərvanın minbərinə qalxdıqda və Abbasilərin hakimiyyəti möhkəmləndikdə atam, yəni İmam Baqir (ə) mənə belə dedi: "Azərbaycandan*

*hökmən bir od qalxacaq və heç bir şey onun yerini verə bilməyəcəkdir. Belə olduqda evdə qalın (bu hərəkətə qoşulmayın) və bizim kimi evdə əyləşin (sükut edin). Bizim hərəkət (qiyam) edənimiz (İmam Mehdi) hərəkət etdikdə isə iməkləyən halda olsa belə (mümkün olan hər bir tərzdə), ona tərəf tələsin. And olsun Allaha ki, sanki mən onu (Kəbə evində) Rükn ilə Məqam arasında dayanıb insanlarla yeni Kitab əsasında beyət etdiyini və (azğın) ərəblərə qarşı hiddətli olduğunu görürəm". O dedi: "Çox yaxın olan şərdən (azğın) ərəblərin halına vay olsun!"* [1, s.379; 2, s.293-294].

Hədisin ilk hissəsindən ilham alaraq bu hadisəni Abbasi sülaləsinin hakimiyyəti dövründə Azərbaycanda Babəkin rəhbərliyi ilə baş vermiş Xürrəmilər hərəkatına aid etmək mümkündür. Məlum olduğu kimi, Babəkin qiyamının əsas mərkəzi Arazın o tayında (cənub hissəsində) və Bəzz qalasında olmuşdur. Mənbələrdə, xüsusilə də ərəb məxəzlərində Araz çayının şimalında yerləşən indiki Azərbaycan Respublikası deyil, Arazın cənub hissəsində yerləşən ərazi Azərbaycan kimi qeyd edilmişdir. Odur ki, məlum hədisin məhz Babək qiyamına aid edilməsi tarix baxımından ciddi problem yaratmır [12, s.39].

Bu hədis əsasında Əhli-beytin (ə) həmin hadisəni dəstəkləməməsi nəzəri əldə olunur. Hədisdə deyildiyi kimi, Əhli-beyt (ə) ardıcılları bu hadisədə iştirak etməməli və evdə qalıb sükut etməlidirlər.

Bu hədisə əsasən, Əhli-beytin (ə) Babəkə və ümumiyyətlə, Xürrəmilər hərəkatına qarşı mənfi mövqe sərgilədiyi nəticəsinə gəlmək olar. Çünki müsbət olsaydı, İmam Baqir (ə) və ondan sonrakı İmamlar (ə) həmin hərəkatı dəstəkləyər, hətta inanclı insanları bu hərəkata qoşulmağa dəvət edərdilər. Lakin hədisdəki *"Belə olduqda evdə qalın və bizim kimi evdə əyləşin!"* göstərişi məsələnin heç də belə olmadığını sübut edir.

Digər ehtimala görə, hədisin - *"Belə olduqda evdə qalın və bizim kimi evdə əyləşin!"* cümləsi Əhli-beytin Xürrəmilər hərəkatına mənfi münasibət göstərdiyi anlamına gəlməyə də bilər, çünki hədisin mahiyyətində tərəf tutmaq deyil, neytral qalmaq dayanır. Hər halda məlum hədisdə Babək və Xürrəmilər hərəkatını dəstəkləyən hər hansı bir nüans yoxdur.

Babək və onun qiyamı barədə xilafət dövründə ərsəyə gəlmiş tarix əsərlərinə istinadən fikir bildirmək elmi yanaşma sayıla bilməz. Çünki xilafətin nəzarəti altında tərtib edilən tarix kitablarında həqiqətin olduğu kimi deyil, daha çox ona rəhbərlik edənlərin bəyəndiyi tərzdə qələmə alınması labüddür. Məşhur deyimə görə, "qəhrəmanları qətlə yetirənlər tarixi yazırlar..."

Təbii ki, sarayda olan tarix yazarları və alimləri xilafətlə 20 ilə yaxın amansız mübarizə aparmış bir şəxs haqqında xilafətin baxışlarına zidd ola biləcək nəsə yaza bilməzdilər. Tarixdə bunu sübut edən faktlar çoxdur. Bununla bağlı sadəcə tanınmış hədis alimi Şeyx Əhməd ibn Şüeyb Nəsai (v.: h. 303) və tanınmış hədis, təfsir və tarix alimi Şeyx Məhəmməd ibn Cərir Təbərinin (v.: h. 310) vəfatı ilə bağlı tarixi məlumatları mütaliə etmək kifayətdir. Çünki Şeyx Nəsai Əməvilərin xilafət mərkəzi olmuş Dəməşqdə İslam peyğəmbərindən (s) Müaviyə ibn Əbu Süfyanla bağlı mənfi bir hədisi söylədiyi üçün döyüldükdən sonra ağır xəstəliyə tutulmuş və dünyasını dəyişmişdi. Şeyx Təbəri isə müəyyən bir mövzuda xilafət tərəfindən məqbul sayılmayan fikri dəstəkləyən şeir söylədiyi üçün ev dustağına çevrilmiş və Bağdadın qazısı tərəfindən qapısı daşlanmışdı. Əlbəttə, biz burada həmin məxəzlərdə mövcud olan bütün məlumatları inkar etmək iddiasında deyilik. Ancaq həmin əsərlərdə yazılanları tamamilə doğru xəbər kimi dəyərləndirmək və onlara gözübağlı şəkildə istinad etmək olmaz.

Babək tarixdə iz buraxmış sərkərdə və mübariz qəhrəman olsa da, onun şəxsiyyəti və Xürrəmilər hərəkatının mahiyyəti ilə bağlı tarixçilər arasında fərqli fikirlər var. Belə ki, müxtəlif çıxışlar və məqalələrdə bəzən onun azğın və kafir bir şəxs olaraq İslam dininə qarşı qiyam etməsi, bəzən Əhli-beyt (ə) ardıcılı olub, ancaq xilafətin zülmünə qarşı mübarizə aparması, bəzən onun İsmailiyyə təriqətinə mənsubluğu, bəzən isə Məzdəkilərin davamçısı olduğu, o cümlədən ərəb millətçiliyinə qarşı vuruşduğu, ya da türk millətçisi olduğu kimi fərqli fikirlər irəli sürülməkdədir... [13].

Bəzi müasir araşdırmaçılar Babəkin Abbasilərə qarşı Əhli-beyt (s) adından qiyam etdiyi, onun qırmızı rəngli bayrağının isə İmam Hüseynin (ə) qanlı bayrağı olduğu, Abbasi xəlifəsi Mötəsim və onun zalım qoşununa qarşı mübarizəyə başladığı fikrini irəli sürməyə çalışsalar da, bu barədə tutarlı dəlil göstərə bilməmişlər.

Həmçinin, Babəkin guya Talış sıra dağlarında Kərbəla şəhidlərinə əzadarlıq etmək üçün xüsusi Hüseyniyyələr qurduğu, İmam Rza (ə) ilə məktublaşdığı və s. kimi fərziyyələr səsləndirilsə də, heç biri üçün tutarlı dəlil təqdim edilməmişdir [12, s.24-43].

Hər halda Babək və onun qiyamı barədə bitərəf tarixi məxəzlər əsasında yenidən geniş, müstəqil və elmi araşdırmalara ehtiyac duyulur. Təbii ki, bu barədə bacarıqlı və peşəkar tarixçi alimlər fikir bildirməlidirlər.

## Nəticə

Azərbaycanla bağlı bir sıra məxəzlərdə mövcud olan hədis sənəd (onu nəql edən şəxslər və ravilər) baxımından zəif və qeyri-mötəbərdir. Lakin dini araşdırmalarda qəbul edilmiş prinsipə əsasən, bir hədisin saxta olduğu istisna edilməklə digər hallarda sənədi zəif olmasına rəğmən, onu məna və məzmun baxımından qəbul etmək və məqbul saymaq olar. Məlum hədis də bu baxımdan məqbul sayılır.

Hədisin məna və məzmunu barədə müxtəlif ehtimal və versiyalar təqdim edilsə də, onun Azərbaycan Respublikasına deyil, Araz çayından cənubda yerləşən Azərbaycan ərazisinə aid olduğu deyilə bilər. Bu hədisin daha çox Abbasilər dövründə ərəblərlə 20 il mübarizə aparmış Babək hərəkatına aid olduğunu düşünmək daha doğrudur. Babəkin şəxsiyyəti, kimliyi, hədəf və amalı isə tarixçilər tərəfindən əhatəli və tərəfsiz şəkildə araşdırılmalıdır.

# ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (Akademik Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsilə). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
2. Məhəmməd Baqir Məclisi. Biharul-ənvar. Beyrut: “Müəssisətul-vəfa”, ikinci çap, 1983.
3. İsmayılzadə İlqar. İslamda vətənpərvərlik. Bakı: “Şans Mətbəə LTD”, birinci çap, 2016.
4. Şeyx Məhəmməd ibn İbrahim Nömani. Kitabul-ğəybə. Qum: tarixsiz.
5. Nəhcül-bəlağə. Həzrət Əli ibn Əbu-Talibin (ə) çıxışları, məktubları və qısa kəlamları. Toplayan: Seyid Rəzi (rə). Qum: “Müəssisətun-nəşril-İslami”, beşinci çap, h.1417.
6. Şeyx ibn Davud Hilli. Ricalu ibn Davud. Tehran: “Enteşarate Daneşgahe Tehran”, h.1383.
7. Şeyx Əhməd ibn Əli Nəcaşi. Ricalun-Nəcaşi. Qum: “Müəssisətun-nəşril-İslami”, h.1407.
8. Şeyx Ğəzairi. Ricalu ibn Ğəzairi. Qum: “Müəssisətu İsmailian”, h.1364.
9. Əllamə Hilli. Ricalul-Əllamətil-Hilli. Qum: “Daruz-zəxair”, h.1411.
10. Şeyx Məhəmməd ibn Ömər Kəşşi. Ricalul-Kəşşi. Məşhəd: “Enteşarate Daneşgahe Məşhəd”, h.1348.
11. İsmayılzadə İlqar. Yurdumun tarixi. Cəlilabad: Cəlilabad mətbəəsi, birinci çap, 2020.
12. Süleyman Kamil. Yəvmul-xəlas. Beyrut: “Darul-kitabil-Lubnani”, yeddinci çap, 1991.
13. Gəncalp Güntay. Babək Xürrəmdin kimdir? / https://kafkassam.com/babək-xurrəmdin-kimdir.html, 28 Mart 2017.

Ильгар Исмаилзаде

## ПО СЛЕДАМ ХАДИСА ОБ АЗЕРБАЙДЖАНЕ


### РЕЗЮМЕ

Ряд источников хадисов содержат специальный хадис об Азербайджане, в котором говорится, что пожар (страшное событие) неизбежно поднимется из Азербайджана.

В этом хадисе верующим дается особое указание оставаться дома и не принимать участия в мероприятии. Известный хадис применялся к разным событиям и отдельным людям в разное время, и по поводу него высказывались странные идеи без тщательного изучения цепочки документов (рассказчиков) и их смысла.

В этом исследовании этот хадис, изложенный в двух документах, был принят во внимание, изучен с точки зрения документа и значения, и были получены определенные результаты. В ходе исследования выяснилось, что хадис слаб и ненадежен в обеих сериях документов (рассказчиков), но с точки зрения смысла определенные объяснения и выводы были представлены и подтверждены.


Ilgar Ismayilzade

## IN THE FOOTSTEPS OF A HADITH ABOUT AZERBAIJAN


### SUMMARY

A number of hadith sources contain a special hadith about Azerbaijan, which states that a fire (terrible event) will inevitably rise from Azerbaijan.

In this hadith, believers are given special instructions to stay at home and not to take part in the event. The known hadith has been applied to different events and individuals at different times, and strange ideas have been voiced about it without carefully examining the chain of documents (narrators) and the meaning it contains.

In this study, this hadith, which was narrated through two documents, was taken into account, examined in terms of document and meaning, and certain results were obtained.

During the research, it became clear that the hadith is weak and unreliable in both series of documents (narrators), but in terms of meaning, certain explanations and conclusions have been presented and confirmed.